**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ**

# MÜASİR AZƏRBAYCAN DİLİ
## (xarici dil müəllimliyi – ingilis və fransız qrupları üçün)

*(Bakalavriat səviyyəsi üçün)*

**BAKI – 2023**

**Tərtibçilər :** **Elşad Abışov**
filologiya üzrə fəlsəfə doktoru, dosent
**Zemfira Abbasova**
filologiya üzrə fəlsəfə diktoru, müəllim

**Elmi redaktor:** **Könül Səmədova**
Filologiya üzrə fəlsəfə doktoru, dosent

**Rəyçilər:** **Yeganə Qəhrəmanova**
filologiya üzrə fəlsəfə doktoru, dosent
**Təranə Şükürlü**
filologiya üzrə fəlsəfə doktoru, dosent

**BAKI 2022**

**Fənnin xarakteri**

Bu fənn dilçiliyin həm nəzəri (fonetika, leksikologiya, qrammatika) həm də tətbiqi (orfoepiya, orfoqrafiya, leksikoqrafiya) sahələrini özündə birləşdirən anlayışlar sistemini əhatə etməklə fundamental tədqiqatlar əsasında müasir Azərbaycan dilinin fonetik sistemi, lüğət tərkibi və qrammatik quruluşunun spesifikasını öyrənir.

**Fənnin məqsədi**

Xarici dildə təhsil alan tələbələrə bakalavriat səviyyəsində Azərbaycan dili təliminin əsas məqsədi onların əməli işdə bu dildən fəal istifadə etmək vərdişlərinə yiyələnməsinə nail olmaqdır. Bakalavrlar kursu başa vurduqda Azərbaycan diliinn elmi, rəsmi, bədii üslublarda yazı və nitq vərdişləri üzrə mətnləri oxuyub qavramalı, öz fikirlərini ingilis və fransız dillərində olduğu kimi, Azərbaycan dilində də ifadə etmək vərdişləri əldə etməlidir. Onlair ana dilimiz və rəsmi dövlət dilimiz olan Azərbaycan dilində ictimai-siyasi, məişət mövzularında minimal şifahi nitq vərdişləri qazanmalıdırlar.

**Fənnin vəzifələri**

.

- tələbələrdə Azərbaycan dilinin fonetik quruluşu haqqında təsəvvür formalaşdırmaq.
- tələbələrə - ədəbi dilin yazılı və şifahi qollarını formalaşdıran orfoqrafiya və orfoepiya qaydaları, onların nəzəri əsasları haqqında ətraflı məlumat vermək.
- dilin inkişafının cəmiyyətin inkişafı ilə bağlı olduğunu diqqətə çatdırmaq.
- dilin lüğət tərkibində geniş işləklik imkanlarına malik olan işlənmə dairəsinə görə söz qrupları, həmçinin

forma və məzmunca söz qrupları bu qruplar arasındakı əlaqə və münasibətlər barədə müfəssəl təsəvvürün formalaşmasına nail olmaq.

- nitq hissələri, substantivləşmə, atributivləşmə, adverbiallaşma, kök və şəkilçi morfemlər, onların özünəməxsus xüsusiyyətlərinin elmi əsaslarını mənimsətmək.
- sintaktik quruluş, söz birləşməsi və cümlə, cümlənin strukturu, mürəkkəb cümlələr, onların arasında əlaqə haqqında tam təsəvvür formalaşdırmağa nail olmaq.

**Fənnin tələbləri**

Bu fənn yeni təlim metodlarına əsaslanmaqla tələbələri problemin müstəqil həllini tapmağa həvəsləndirmək, onları yaradıcılıq prosesinə cəlb etmək, tədris prosesində innovativ metodları stimullaşdırmaq, Azərbaycan Respublikası Dövlət dilinin inkişafında müasir Azərbaycan dilinin rolu haqqında təşəbbüs formalaşdırmağı başlıca tələb kimi müəyyən edir.

**Fənnin təlim nəticələri**

- Müasir Azərbaycan dilinin fonetik quruluşunun əsas xüsusiyyətlərini müəyyənləşdirir,
- Dilin daxili qanunauyğunluqları ilə bağlı olan heca və vurğunu, onların praktik işlənmə imkanlarını şərh edir,
- Prosodik vasitələr – vurğu, tembr, temp, fasilə və intonasiya barədə aydın məlumat əldə edir; dilin lüğət tərkibini mənimsəyir;
- Çoxmənalılıq, omonim, sinonim, antonim, köhnəlmiş sözlər, terminlər, arqo və jarqonlardan nitqdə düzgün istifadə edir;

- Nitq hissələri, onların quruluşu və lüğəvi məna növlərini, morfoloji kateqoriyaların leksik-qrammatik xüsusiyyətlərini izah edir;
- Sözlər və söz birləşmələri arasında sintaktik əlaqələrin mahiyyətini şərh edir;
- Sadə və mürəkkəb cümlələr, onların növləri və bir-biriləri arasındakı oxşar və fərqli xüsusiyyətləri aydınlaşdırır;

**Yoxlama forması**

**(**imtahan yoxlama və ya kurs işi, müstəqil işlər necə aparılacaq). Təhsilalanların bilik və bacarıqları təlimata uyğun olaraq təcrübi və ya laboratoriya sorğuları, ayrı-ayrı mövzular üzrə test tapşırıqlarının, məruzə, referat və s işlərin yerinə yetirilməsi, kollokviumlar və imtahan vasitəsilə yoxlanılacaqdır.

**Fənn üzrə saatların bölgüsü**

Müasir Azərbaycan dili (fonetika, leksikologiya, morfologiya, sintaksis) fənni filologiya fakültəsində ingilis dili və fransız dili müəllimliyi ixtisasında təhsil alan tələbələrə I kursun II semestrində 45 saat (30 saat seminar, 15 saat mühazirə) həcmində tədris olunur. Fənnə verilən saatların həcmi mütəxəssis hazırlığı üzrə dövlət standartlarının tələblərinə uyğundur. Fənn üzrə tədris işinin əsas növü mühazirə və praktik məşğələlərdir. Məşğələnin əsas forması ilə yanaşı, tələbələrin auditoriyadan kənar yerinə yetirdiyi (mərhələli formada müəyyənləşdirilən) sərbəst işlər də fənnin dərindən mənimsənilməsinə əhəmiyyətli dərəcədə kömək edir.

**Mövzunun planı**

| № | Mövzunun adı | Saat: mühazirə | seminar |
|---|---|---|---|
| 1 | Fonetika haqqında məlumat. Səs və fonem anlayışı. Azərbaycan dilinin fonemlər sistemi. Sait və samitlərin təsnifi prinsipləri. Ahəng qanunu. Fonetik hadisələr | 2 | 6 |
| 2 | Leksikologiya.Leksik-semantik söz qrupları. Sözlərin mənşəcə təsnifi. Alınma sözlər. | 2 | 6 |
| 3 | Frazeologiya. Frazeoloji vahidlərin məna növləri. | 2 | 8 |
| 4 | Morfologiya. Kök və şəkilçi. Sözdüzəldici və sözdəyişdirici şəkilçilər. | 2 | 8 |
| 5 | Sözlərin quruluşca növləri. Azərbaycan dilində söz yaradıcılığı. | 2 | 8 |
| 6 | Nitq hissələri. Əsas və köməkçi nitq hissələri haqqında ümumi məlumat. | 2 | 8 |
| 7 | Sintaksis haqqında ümumi məlumat. Sintaktik əlaqələr. İsmi və feili birləşmələr. Cümlə. Cümlənin təsnifi. | 2 | 8 |
| 8 | Mürəkkəb cümlə. Tabeli və tabesiz mürəkkəb cümlələr. | 1 | 8 |

# GİRİŞ

İxtisası ingilis dili və fransız dili olan tələbələr ixtisasları ilə bağlı informasiyaları həm də Azərbaycan dilində almağı bacarmalı, danışıq və yazı vərdişlərinə yiyələnməlidirlər.

Bakalavr pilləsini bitirib müvafiq ixtisas üzrə bakalavr dərəcəsini alanlar Azərbaycan dilini əməli fəaliyyətlərində tətbiq etmək üçün ən zəruri bilikləri əldə edirlər. Azərbaycan dilinin tədrisində əsas məqsəd əvvəl qazanılmış bilikləri artırmaq, dili daha yüksək səviyyədə mənimsətmək, iki dildə sinxron və yazılı tərcüməni mükəmməl şəkildə yerinə yetirməkdir.

Bakalavr pilləsində Azərbaycan dilinin tədrisi dilin tətbiqi ilə bağlı bölmələrin, mövzuların diqqət mərkəzinə çəkilməsini nəzərdə tutur. Azərbaycan dilinin təşəkkülü, formalaşması, inkişaf tarixi, bu dilin türk dilləri ailəsində yeri, dialektologiya, terminologiya, semasiologiya və s. xüsusi biliklərin alınması bu və ya digər məsələlər barədə təkrar və əlavə məlumatların verilməsinə ehtiyac olduğunu təsdiq edir. Məhz ixtisası "İngilis dili" və "Fransız dili" olan bakalavrlara "Müasir Azərbayacan dili" fənninin tədrisi onlara gələcək əmək fəaliyyətlərində dövlət dili kimi Azərbaycan dilininin elmi şəkildə tətbiqinə geniş imkanlar yaradır.

Bakalavr pilləsində Azərbaycan dilinin tədrisi zamanı mühazirə və məşğələlərdə mövzuların ardıcıllığını təmin etmək, dil vərdişlərinin fasiləsiz inkişafına nail olmaq lazım gəlir. Yalnız bu halda effektiv nəticələr əldə etmək mümkündür. Qeyd olunan cəhət Azərbaycan dilinin yüksək səviyyədə öyrənilməsi və tətbiqini gerçəkləşdirir.

Azərbaycan dilinin intensiv mənimsənilməsi, fəal tətbiqi zamanı tələbələrin zəruri leksik vahidlərdən lazımi qaydada istifadə etmələrinə geniş imkanlar yaradır. Müasir

dövrdə dilin tədrisində danışıq dilinin elementlərinə, nitq mədəniyyəti məsələlərinə də diqqət verilir.

Tədris proqramı qarşıya qoyulmuş əsas məqsədi, bu məqsəddən irəli gələn vəzifələri yerinə yetirməyə imkan yaradacaq minimum tədris materialını əhatə etməlidir. Təqdim olunan proqramda bu cəhət əsas götürülmüşdür.

İxtisası "İngilis dili" və "Fransız dili" olan bakalavrlar üçün "Müasir Azərbaycan dili " proqramı tədris kursunun bir-birini tamamlayan iki mərhələdə aparılması əsasında hazırlanmışdır.

Tədris kursunun birinci mərhələsində bakalavr pilləsində verilmiş nitq bacarığı və vərdişlərinin mənimsənilmə səviyyəsinin dəqiqləşdirilməsi, yeni bacarıq və vərdişlərin formalaşdırılması həyata keçirilir.

İkinci mərhələdə bakalavrların Azərbaycan dilindən müstəqil istifadə etməsi, onu əməli fəaliyyətdə yüksək səviyyədə tətbiq etməsi üçün zəruri bilik və bacarıqla yiyələnməsini əhatə edir.

"Müasir Azərbaycan dili " fənni fonetika, orfoqrafiya və orfoepiya, leksikologiya, frazeologiya, qrammatika (morfologiya və sintaksis) bölmələri üzrə tədrisi özündə birləşdirir. Xüsusi nitq və yazı vərdişləri isə müvafiq bölmələr üzrə tədrisdə öz əksini tapacaqdır.

**Fonetika**

Səs və fonem anlayışı. Azərbaycan dilinin fonemlər sistemi. Fonemlərin təsnifi. Sait və samit səslər. Fonetik hadisə və qanunlar. Vurğu: heca vurğusu, həyəcanlı vurğu, məntiqi vurğu, heca. İltisaqi dil Azərbaycan dilində söz kökünə

şəkilçilərin əlavə olunması zamanı sait səslərin bir-birini izləməsi prinsipləri diqqət mərkəzinə çəkilir. Bununla bağlı fonetik səviyyədə həm şifahi, həm də yazılı nitq normaları tədris edilir.

## Qrafika, əlifba, orfoepiya

Qrafika və qrafemlər haqqında, Azərbaycan dilinin əlifbası, səslər və hərflər arasında münasibət, orfoqrafiya, orfoqrafiya qaydaları haqqında məlumat. Alınma sözlərdə bəzi hərflərin işlənməsi xüsusiyyətləri. Onomastik vahidlərin orfoqrafiyası. İxtisarlar və onların yazılışı. Qrafem və fonem uyğunluğu. Orfoepiya, orfoepiya qaydaları, ədəbi tələffüz.

## Leksikologiya

Leksika və leksikologiya anlayışı. Leksikologiyanın növləri. Forma və məzmunca söz qrupları, omonimlər, sinonimlər, antonimlər. Dilin lüğət tərkibi, leksik-semantik söz qrupları. Sözlərin mənşəcə növləri. Alınma sözlər. Ümumişlək sözlər. Xüsusi leksika.

## Frazeologiya

Frazeologiya haqqında ümumi məlumat. Frazeologizmlərin təsnifi. Frazeoloji vahidlər. atalar sözləri, zərb-məsəllər frazeoloji vahid kimi. Frazeoloji vahidlərin üslubi xüsusiyyətləri.

## Morfologiya

Morfologiya. Kök və şəkilçi. Sözdüzəldici və sözdəyişdirici şəkilçilər. Şəkilçilərin variantlılığı. Sözlərin quruluşca növləri. Azərbaycan dilində söz yaradıcılığı. Nitq hissələri. İsim. İsmin quruluşca növləri. İsmin qrammatik kateqoriyaları. Kəmiyyət və mənsubiyyət kateqoriyası.

İsmin hal və xəbərlik kateqoriyası. Sifət. Sifətin məna növləri. Əsli və nisbi sifətlər. Sifətin dərəcələri. Sifətlərin leksik-semantik bölgüsü. Say. Sayın məna növləri. Əvəzlik və onun məna növləri. Feil. Feillərin quruluşca və mənaca növləri. Feilin formaları. Zaman kateqoriyası. Felin təsriflənməyən formaları. Məsdər. Feili sifət, feili bağlama. Zərf. Köməki nitq hissələri. Qoşma, bağlayıcı, ədat, xüsusi nitq hissələri, nida, modal sözlər və təqlidi sözlər.

**Sintaksis**

Sintaksis. Söz birləşmələri. İsmi və feili birləşmələr. Sintaktik əlaqələr. Cümlə və onun növləri. Cümlə üzvləri. Mübtəda və xəbər. Tamamlıq. Təyin. Zərflik. Adlıq cümlə. Yarımçıq cümlə. Təktərkibli və cüttərkibli cümlələr. Mürəkkəb cümlə. Tebesiz mürəkkəb cümlə. Tebeli mürəkkəb cümlə.

**Nitq fəaliyyəti və nitq bacarıqları**

Bu model əsasında tələbələrin nitq fəaliyyətinin bütün növlərində proqramın tələblərinə uyğun bacarıq və vərdişlərə yiyələnməsi nəzərdə tutulur.

Nitq fəaliyyətinin konkret növlərinin formalaşdırılmasında monoloji və dialoji nitq üzrə bacarıqlara daha çox yer ayrılır. Bacarıqlar nitq fəaliyyəti növləri üzrə konkretləşdirilir. Tələbələrin danışıq vərdişləri, danışıqda Azərbaycan dilinə məxsus və alınma sözləri işlətmə

xüsusiyyətləri, nitq mədəniyyəti məsələləri, danışıq prosesində nitq etiketinə əməl etmək bacarıqları, mətni öyrəndikləri xarici dildən Azərbaycan dilinə tərcümə etmə səviyyələri, mətnin hansı üsluba aidliyindən asılı olaraq onu həmin üslubun normalarına uyğun şəkildə yazma bacarıqları diqqət mərkəzinə çəkilir.

## ӘDӘBİYYAT

**Azәrbaycan dilindә**

1. Qurbanov A. Müasir Azәrbaycan әdәbi dili. I c. Bakı, 2019
2. Seyidov Y. Azәrbaycan dilinin qrammatikası. Morfologiya. Bakı, 2002
3.Cәfәrov C., Abdullayev N. Müasir Azәrbaycan dilinin morfologiyası. II h. Bakı, 2004
4. Axundov A. Seilmiş әsәrlәri. II cilddә. I cild, Bakı "Elm vә tәhsil" 2012
5. Axundov A.Seçilmiş әsәrlәri. II cilddә, II cild, Bakı "Elm vә tәhsil" 2012
6. Cәfәrov S. Müasir Azәrbaycan dili (leksika). Bakı, "Şәrq-Qәrb" 2007
7. Dәmirçizadә Ә. Müasir Azәrbaycan dili (fonetika, orfoepiya, orfoqrafiya). Bakı, "Şәrq-Qәrb" 2007
8. Hüseynzadә M. Müasir Azәrbaycan dili (morfologiya). Bakı, "Şәrq-Qәrb" 2007
9. Hüseynzadә M. Dil vә Poeziya. Bakı, "Elm" 2008
10.Hacıyev T. Azәrbaycan әdәbi dili tarixi. II cilddә, Bakı "Elm" 2016
11. Hüseynov M. Şeirşünaslıqda dil sәnәtkarlığı. Bakı, "Elm" 2007
12. Verdiyev Z., Ağayev F., Adilov M. Azәrbaycan dilinin semasiologiyası. Bakı, "Elm", 2019
13. Xalıqov F.R. Azәrbaycan onomalogiyası. Bakı, 2010
14. Xәlilov B. Müasir Azәrbaycan dilinin morfologiyası. II cilddә, I c., Bakı, "Nurlan", 2003
15. Xәlilov B. Müasir Azәrbaycan dilinin morfologiyası. II c., Bakı, "Nurlan", 2003
16. Xәlilov B. Müasir Azәrbaycan dilinin leksikologiyası. Bakı, "Nurlan", 2008

17. Xəlilov B. Müasir Azərbaycan dili (fonetika, orfoepiyaorfoqrafiya). Bakı, “Elm və təhsil”, 2010
18. Xəlilov B.Müasir Azərbaycan dili (sintaksis). Bakı,2017
19. Kazımov Q.Ş. Müasir Azərbaycan dili (morfologiya). Bakı, “Elm və təhsil”, 2014
20. Kazımov Q.Ş. Müasir Azərbaycan dili (sintaksis). Bakı, “Elm və təhsil”, 2010
21. Məmmədov X., Cavadov Ə. Tabeli mürəkkəb cümlənin semantik-qrammatik xüsusiyyətləri. “Mütərcim”, Bakı, 2000
22. Qurbanov A. Müasir Azərbaycan ədəbi dili. I c, Bakı “Nurlan”, 2003
23. Seyidəliyev N. Azərbaycan dastan və nağıl dilinin frazeologiyası. Bakı, Araz, 2006

# Mündəricat

Mövzuların saat bölgüsü............................................................6

Giriş...................................................................................................7

Mövzuların məzmunu..................................................................9

Ədəbiyyat........................................................................................12